# Azərbaycan Avropada etibarlı tərəfdaş kimi qəbul edilir

**Prezident İlham Əliyevin Kopenhagendə baş tutan "Avropa Siyasi Birliyi" Sammitində iştirakı təkcə Cənubi Qafqaz üçün deyil, bütövlükdə Avropa üçün mühüm hadisə oldu. Bu gün qitə öz təhlükəsizliyini möhkəmləndirmək, enerji asılılığını azaltmaq və siyasi böhranlardan çıxış yolları axtarmaq zərurəti ilə üz-üzədir.**

Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında bildirib ki, bu baxımdan Azərbaycan real və praktik həllər təklif edən ölkə kimi ön plana çıxır. Sammitin əsas məqamlarından biri Prezident İlham Əliyevlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüş oldu. "Bu dialoq bir daha göstərdi ki, Bakı sülhə sadiqdir və onun əldə olunmasını yalnız ikitərəfli formatda görür. Azərbaycanın prinsipial mövqeyi ondan ibarətdir ki, regional məsələlər yalnız region ölkələri tərəfindən həll edilməlidir. Məhz sakit və səmimi şəraitdə, vasitəçilərsiz və xarici iştirakçılarsız keçirilən təkbətək görüşlərin danışıqların əsas formatına çevrilməsi də bu mövqeyin qəbul olunduğunu sübut edir. Artıq vasitəçilərə ehtiyac qalmır, bu isə prosesin daha dürüst və nəticəyönlü olmasına imkan yaradır. Hər hansı xarici müdaxilə və ya beynəlxalq oyunçuların prosesi siyasi alver predmetinə çevirmək cəhdləri isə sülh perspektivini yalnız uzaqlaşdırır",- deyə o əlavə edib.



Deputat qeyd edib ki, Azərbaycan üçün sülh, sadəcə, bəyanat deyil, praktik seçimdir: kommunikasiyaların açılması, ərazi bütövlüyünün qarşılıqlı tanınması, etimadı gücləndirən konkret addımlar. Məhz bu yanaşma Cənubi Qafqazda uzunmüddətli sabitliyi mümkün edir.

Prezident İlham Əliyevin, həmçinin Avropanın aparıcı liderləri və Avrokomissiya nümayəndələri ilə bir sıra görüşlər keçirdiyini xatırladan S.Fətəliyeva deyib ki, gündəliyin əsas mövzuları - "Cənub qaz dəhlizi"nin genişləndirilməsi, "yaşıl enerji" sahəsində əməkdaşlıq və yeni nəqliyyat marşrutlarının formalaşdırılması idi. Bunlar təkcə iqtisadi layihələr deyil, eyni zamanda, Avropanın yeni təhlükəsizlik sisteminin elementləridir.

Deputatın sözlərinə görə, Bakı faktiki olaraq Avropanın enerji və nəqliyyat dayanıqlılığının əsas təminatçısı kimi statusunu möhkəmləndirir: "Azərbaycan etibarlı tərəfdaş, milli maraqlarını regional və Avropa sabitliyi ilə uzlaşdıran dövlət kimi qəbul olunur. Bu gün aydın görünür ki, Azərbaycan Avropaya yalnız enerji resursları və tranzit imkanları daşımır, o, həm də hazırda ən çox ehtiyac duyulan dəyərləri təklif edir - sabitlik, ardıcıllıq və möhkəm siyasi iradə. Avropanın bir çox ölkəsi daxili böhranlarla üzləşdiyi, beynəlxalq institutların imkanlarının məhdud göründüyü bir vaxtda məhz Azərbaycan kimi tərəfdaşlar yeni həll yollarının formalaşmasında dayağa çevrilir. Azərbaycan artıq təkcə regional güc mərkəzi deyil, həm də bütöv Avropanın gələcəyini müəyyənləşdirən ölkədir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 4 oktyabr (№213).- S.6.